«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 31 oktyabr (cümə axşamı günü) tarixli XXVII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Pəncşənbə, 23 məhərrəmülhəram sənə 1337. 31 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə: Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

İkinci Azərbaycan firqəsi [diviziyası] taborlarında istixdam olunmaq [xidmətə qəbul edilmək] üzrə türkcə bilən altı feldşerə lüzum vardır. Arzu edənlər vəsiqələri ilə bərabər, hər gün saat ikidən saat altı sonraya qədər Rotşildin evində firqə sərtəbabətinə [baş həkimliyinə] müraciət etsinlər.

EV KOMİTƏLƏRİNƏ ELANİ-RƏSMİ

Bununla şəxsi vərəqələr xüsusunda bütün əhaliyə elan olunur ki, vərəqələr təcili ev komitələri tərəfindən yazılıb əhaliyə verilməlidir. Fotoqraf surətləri isə sabiq elandakı bir ay müddətə bədəl iki ay müddətində hüviyyət [şəxsiyyət] vərəqələrinə yapışdırmalıdır. Kəzalik [həmçinin], polis dairələrinə müraciətdən ötrü, sabiqdə elandakı on günə bədəl təftiş üçün vaxt dəyişilib, hər kəs ayda bir dəfə müayinədən ötrü kəndi polis dairələrinə müraciət etməlidirlər.

Azərbaycan Polis Müfəttişi-ümumisi Bəhaəddin

ELAN

Qafqaz Müsəlman Ordusuna 7 ay müddətində 150 min pud mal və qoyun əti vermək arzusunda olan zəvat [şəxslər] Mariinski caddədə 6 nömrəli evdə Ərzaq şöbəsindən şəraitini [şərtlərini] bilə bilərlər.

710 6-1

QİSMİ-RƏSMİ HÖKUMƏT QƏRARDADI

Maarif Nəzarəti əmrləri
28 təşrini-əvvəl [oktyabr] 1918

Nömrə 62
Qazax darülmüəlliminə [pedaqoji məktəbinə] tədris etməkdən ötrü aşağıda adları yazılan zəvat [şəxslər] təyin edilirlər. Hökumət dəftərxanası kargüzarı İsfəndiyar bəy Vəkilov, Yusif Qasımov, Bakı 3-üncü ali-ibtidai məktəbinin müəllimi Əli Hüseynov, Bağmanlı məktəbi naziri [müfəttişi] Məhəmməd Hüseynzadə, İbrahim əfəndi Qayıbov. Birinci Vəkilov rus lisanı və təbiət, ikinci Qasımov qəvaid [qrammatika], Hüseynov tarix və coğrafiya, Hüseynzadə riyaziyyat, Qayıbov əlsinə [dillər]. Bunlar təşrini-əvvəlin 20-sindən hesab olunurlar.

Nömrə 66
Həmin sənə təşrini-əvvəlin [oktyabrın] 1-indən etibarən Bakı gimnaziyasının müəllimi Mirzə Məhəmməd Axundzadə vəzifəsindən ixrac edilir.

Nömrə 67
Rəhim Kərimzadə, Olqa Qavrilovna Nikolayeva, Nadejda Yakovlevna İvanova, Maarif Nəzarəti [Maarif Nazirliyi] dəftərxanasına təyin edilirlər. Əvvəlincisi dəftərxana məmuru, ikincisi isə makina yazıçılığına.

Maarif naziri əvəzində: Şahtaxtinski

Ziraət və Dövlət Əmlakı İdarəsinə əmr
26 təşrini-əvvəl [oktyabr] 1918

Nömrə 50
1918 sənədə sabiq Qafqaziya Ziraət idarəsinə göndərilən Göyçay qəzasının 8-inci dairəsinin naziri [müfəttişi] Kotin, Tiflisdə vəfat etdiyindən naşi xidmətçilər siyahısından çıxarılır.
İdarə müdiri vəzifəsini müvəqqəti ifaya müvəzzəf [ifa edən]: Şpitalski

TELEQRAF XƏBƏRLƏRİ

28 təşrini-əvvəl [oktyabr] 334 tarixi ilə Osmanlı Qərargahi-ümumisindən təbliğ olunmuşdur. Dəclə cəbhəsində vüqu bulan düşmən təərrüzləri [hücumları] tərd edildi [geri püskürdüldü].

Osmanlı Milli Ajans[ı] xəbərləri
29.10.34
Almaniya səfiri kont [qraf] Bernstorf məzunən [məzuniyyətə çıxaraq] məmləkətinə getmişdir. İstanbulda bulunan alman və Avstriya əfrad və zabitanı [əsgər və zabitləri] hər gün məmləkətlərinə övdət etməkdədirlər [qayıtmaqdadır]. Alman heyəti-islahi-yeyi-əsgəriyyəsinin [hərbi təlimatçılar heyətinin] də gedəcəyini qəzetələr yazırlar.
Alman Ərkani-hərbiyyeyi-ümumiyyə rəisi [Baş qərargahının rəisi] general Lüdendorf istefasını vermişdir.
İstanbuldakı ingilis əfradi-bəhriyyəsinin [matroslarının] tərxisinə başlanmışdır.
Ticarət və Ziraət sığorta ümuru [işləri], İaşə naziri Cəlaləddin Muxtar bəy tərəfindən idarə olunmaqdadır.

SÜLH ƏTRAFINDA

Osmanlı Milli Ajans[ı] teleqrafı
Xariciyyə naziri Nabi bəy dün Məclisi-Məbusanda [Parlamentdə] hökumətin ingilis mürəxxəsləri [nümayəndələri] ilə mütarikə müzakiratına [atəşkəs haqqında müzakirələrə] girişildiyini rəsmən bəyan etmişdir. Müzakirat mövcibi-məmnuniyyət [məmnuniyyət verici] bir şəkil almış, bu gün-yarın nəticələnməsi mühəqqəq [qəti] görünür.
Bolqarıstanın qəbul etdiyi şərtlər arasında möhtəməl [ehtimal olunan] bir alman təərrüzünə [hücumuna] qarşı, Bolqarıstanın kəndi ərazisini müdafiə etməsi də daxildir.
Romanyanın rəsmi qəzetəsi Romanya və Macarıstanın Tuna [Dunay çayı] qərbindəki mənafe iştirakına binaən [mənafelərinin ortaq olmasını nəzərə alaraq], hər iki məmləkətin birləşməsi üçün nəşriyyatda bulunur.
Miralay [polkovnik] Hauz ilə amerikan quvveyi-bəhriyyəsi rəisi [Hərbi Dəniz qüvvələri komandiri] Qakson Parisə gəlmişdir. Bunlar Almaniyanın sülh təklifinin əsnayi-müzakirəsində [müzakirəsi prosesində] bulunacaqlardır. Klemanso ilə Kox arasında mütarikəyə dair teleqraf təati edilmişdir [qarşılıqlı teleqraflar göndərilmişdir]. Kox, almanlar səmimi olduğu təqdirdə, mütarikə[nin] bütün əsgəri təfəvvüqü [üstünlüyü] mühafizə edəcəyini bəyan etmişdir.

Milli Ajans / 29.10.34
Qəzetələrə nəzərən 5-inci Mondros limanı qərargahında cərəyan etməkdə olan mütarikə müzakiratı bir qaç günə qədər imzalanacaqdır.

Bern, 23 təşrini-əvvəl
Almaniyanın Vilsona vermiş olduğu axırıncı cavabı, İngiltərə və Fransa mətbuatının narazılığına səbəb olmuşdur. Müttəfiqlərin rəyincə Almaniya məğlub olub, tərksilah edənədək sülh müzakiratı başlamağın heç mənası yoxdur.
Paris millətçi mətbuatı qoşunları cəbhədən geri çəkib, beynəlmiləl istintaq komisyonu təyin edilməsi təklifini qeyri-məqbul görür. Almaniyada icra edilmiş islahatı da qeyri-kafi hesab edirlər. "Deyli xronikl" yazır: Almaniyanın qüvveyi-hərbiyyəsini sındır- madıqca, Amerikada heç kəs müharibənin nəticəsindən razı qalammaz.

Peştə, 23 təşrini-əvvəl [oktyabr]
Almaniya və Avstriyadan kömür, benzin və cövhər gəlmədiyindən dolayı Macarıstan Avstriyaya taxıl buraxmayır.

BAKI, 23 MƏHƏRRƏM
Vəziyyətimiz

Müharibənin bidayətindən [başlanğıcından] Avropada, daha doğrusu bütün kürreyiərzdə hökmfərma [hökmran] olan siyasi vəziyyət, bir neçə vaxtdan bəridir ki, böyük bir təbəddülata [dəyişikliyə] uğraşmaya başlamışdır.
Şimdiyə kimi müəyyən bir surətdə davam edən müharibə, şimdi öz halını dəyişib, zəfəryab olan [zəfər qazanan] Almaniyanı hərbi cəhətdən böyük bir müşkilata [çətinliyə] uğratmışdır.
Almanların geri çəkilməsi bugünkü vəziyyət etibarı ilə məğlubiyyət mənasını təzəmmün etməz isə də [məğlubiyyət mənasına gəlməsə də], hər halda nazik [həssas] və ciddi bir vəziyyətdə bulunduğunu inkar etmək qabil deyildir.
Məlum olduğu üzrə, biz Azərbaycan türklərinin və bütün türk və islam aləminin istinadgahi-yeganəsi [yeganə dayağı] olan Osmanlı dövləti Almaniya ilə müttəfiqdir. Bunun üçün də, hər bir Almaniya müvəffəqiyyəti, həm Türkiyədə və həm də başqa islamlar arasında böyük məmnuniyyət və şadmanlıq ilə tələqqi edilirdi. Binaileyh [ona görə], təbiidir ki, almanların Qərb cəbhəsindəki müvəffəqiyyətsizlikləri əfkari-ümumiyyəmizdə icrayi-təsir etməkdən xali qalmayır [ictimai rəyimizə təsirsiz ötüşmür].
Vəziyyətimiz nə olacaq? Gələcəyimiz nə şəkil alacaq? Bütün türk və islam aləmi belə bir könül açmayan təbəddülatdan nə halda qalacaq? Türk milləti-nəcibəsi [nəcib türk milləti] bu müharibədə sərf etdiyi zəhəmət [zəhmətlər], verdiyi qurbanlara nisbətən bir şey qazanacaq mı? Müharibə indiki halda davam edərsə, həm kəndisinin, həm də başqa türk və islam qardaşlarının gələcəyini təmin etməyə qadir ola biləcəkmi? İştə aramızda cərəyan ilə bizləri mütəhəyyic edən [həyəcanlandıran] suallar.
Bu suallara mümkünat daxilində cavab verməyə səy edəlim. Bizcə, iztiraba və nigarançlığa elə bir məhəl [yer] yoxdur. 1914 sənə ağustos ayının 19-unda tövlid edən [doğulan; başlayan] müharibənin baniləri millətlər kəndiləri olmamış, bəlkə bəzi istilacu və qəlbləri hirs [tamah] ilə dolu hökumətlər olmuşlar ki, onların ən ümdə mütəşəbbisi Rusiya çarlığı idi. Müharib [savaşan] dövlətlər arasında demək olar ki, yalnız bir Türkiyə kəndi millətinin hüquqi-bəşəriyyəsini [insani hüquqlarını] mühafizə etmək üçün həmin müharibəyə girişməyə məcbur oldu. Başqa dövlətlərin hər birisini götürsək, onların qəlblərində tutduqları amal, yalnız bir millətin təmini-həyatı və ya mühafizəsi olmayıb, onun xaricində bir çox əməllər [arzular, niyyətlər] daha var idi. Rusiyada vaqe olmuş inqilablar, Almaniyadakı kabinə [hökumət] və məşrutə [konstitusiya] təbəddülatı [dəyişiklikləri], İngiltərə, Fransa, İtaliya və Amerikadakı sülh tərəfdarlarının uca səsləri söylədiyimiz fikrə bu gün böyükcə dəlildir. Müşahidə edildiyinə binaən [müşahidə edildiyi kimi], bu gün zəfər işığı millətlərin gözlərini qamaşdırmayır. Hər tərəfdən gələn "sülh" sədası Avropa ricali-dövlətini [dövlət adamlarını] istilacu əməllər və hərəkətdan [işğalçılıq arzu və hərəkətlərindən] çəkinməyə məcbur edir və edəcəyi mühəqqəqdir [qətidir]. Deməli, günü-gündən mövqeyi yüksəlməkdə olan sülh əsnasında, hər bir millət üçün yekdigəri ilə etilafa [razılığa] girişib də, öz hüquqi-bəşəriyyələrini təminə vase' [geniş] bir imkan hasil olur. Belə vəziyyəti asanlaşdıran digər bir əsas vardır ki, o da hər bir müharib dövlət tərəfindən təsdiq və təkid edilən: "Hər bir millət kəndi müqəddəratını kəndi əlinə alacaqdır" nöqtəsidir. Sülh həmin əsas üzərə olasıdır. Bunu hal-hazırda bütün Avropanın vəz'ini [vəziyyətini] dəyişdirməyə qadir olan prezidenti Vilson dəxi dəfəatla [dəfələrlə] təkid etmişdir. Həmin əsas müəyyən bir şəkil alarsa (zatən almamasına bir səbəb olmasın gərək) ol vəqt [o vaxt] türk əqvamının [qövmlərinin] və onlarla bərabər başqa islam qardaşlarımızın həyatı bir qədər təmin edilər və onların hüquqi-bəşəriyyələrinə qarşı heç bir tərəfdən təcavüz olunmaz.
Lakin, bunun üçün türk və islam aləmindəki fikir sahibləri, ziyalılar, siyasiyyun [siyasətçilər] və həmçinin məhafili-diplomasi [diplomatik dairələr] ən ciddi səy və kuşişdə [çalışmaqda] olub da, bu xüsusda üç yüz milyonu havi [əhatə edən] bir kütlənin səslərini və istəklərini bütün aləmə bildirib, Avropanın millətləri haqqında münasib görülən vəziyyət və əsasa bunların da istehqaqı [haqqı] olduğunu isbat etməlidirlər. Bizcə, bu barədə Türkiyə, İran, Hindistan, Rusiya, Qafqaz və başqa məmləkətlərdə yaşayan müsəlmanlar arasında indidən bir mübadileyi-əfkar [fikir mübadiləsi] icrası pək münasibi-hal və zaman [vəziyyətə və dövrə uyğun] olardı.
Siyasət üfqündə başqa şeylər görünməsi qeyri-möhtəməldir [ehtimal daxilində deyil]. Lakin, əgər sülh cərəyanı cəngcu məhafillərin [müharibə istəyən dairələrin] israrı altında xəfiflərsə [zəiflərsə], o vaxt nə etməli? Buna dəxi hazır olmalıyız. Azərbaycan türkləri və bəlkə onlardan başqa qeyri [digər] islam balaları öz tələlərini böyük qardaşları olan Osmanlı türkləri ilə birləşdirmişlərdir. Buna görə qarşımızdakı möhtəməl vüquat [hadisələr] həpimizə aid olacaqdır. Bu təqdirdə də güman etdiyimizə görə, iztirab və nigarançlığa yenə də məhəl olmasa gərək. Çünki, bir fikir və bir hisslə yaşayan və hər bir fədakarlığa amadə [hazır] olan əzim [əzmli] bir ittihadı [birliyi] pozmaq, çox da asan işlərdən deyildir.
Bizim bu fikir və ümidimizə türk mətbuatının dəxi şərik olduğu möhtərəm "Yeni gün" arxadaşımızın baş məqaləsindən iqtibasən götürdüyümüz şu mülahizələrdən aşikardır.
"Yeni gün" rəfiqimiz məqaləmizin ikinci qismindəki mövzudan və Qərb cəbhəsindəki müharibə vəziyyətinin (bizə olan kimi) sui [mənfi] təsirindən bəhslə deyir ki:
"Əvət, nazik [həssas] və ciddi bir vəziyyətdə bulunduğumuzu inkar etmək qabil deyildir. Fəqət, vəziyyətin nəzakət [həssaslıq] və ciddiyyətini inkar etməmək ya's və növmidiyə [kədər və ümidsizliyə] büsbütün təslimi-nəfs eyləmək [təslim olmaq] demək deyildir. Şu hərbi-ümumi tarixini göz önünə gətirəcək olarsaq, bundan daha nə qədər ciddi və hətta vəxim [qorxulu] dəqiqələr keçirdiyimizi dərhal görəriz. Rus qüvvətlərinin təhəmmülsüz [dözülməz] bir şiddətlə Qaliçyanı əzərək macar ovalarına enməyə başladıqları, Almaniyanın Şərqi Prussiya vilayətini çığnadıqdan [tapdaladıqdan] sonra irəliləməyə davam etdiyi günləri unutduqmu? Çanaqqalanı zorlamaq üçün, xasmın [düşmənin] atəş və çəlik püskürdüyü xələcanlı [təşvişli] saatları xatirdən çıxardıqmı? İtalyan və bilaxirə [ardınca] rus və Amerika müdaxilələri üzərinə keçirdiyimiz düşüncəli zamanların iztirabları heç birimizin qəlbində mənquş [nəqş edilmiş halda] qalmadımı? Bu tarixi misallar bugünkü qeyri-müsaid [əlverişsiz] vəziyyət qarşısında büsbütün növmid və məyus olmağın doğru olmayacağını isbata kafidir. Şairin şu gözəl sözlərini heç unutmayalım:
"Ümmid ilədir cahanda hər hal."
İştə qəlbimizdə həmin ümidlə gələcəyə açıq gözlə baxmalıyız.

C. D.

KANÇLERİN [KANSLERİN] NİTQİ

Reyxstaqın 22 təşrini-əvvəl [oktyabr] tarixli iclasında Almaniya Kançleri böylə bir nitq irad etmişdir [söyləmişdir]:
"Həzərat, sizinlə ilk dəfə danışdıqdan sonra, hər iki tərəf yeni alman hökumətinin sülh təşəbbüsatına müvafiq yeni iqdamatda bulunmuşdur [addımlar atmışdır].
Yeni hökumət vəzifəsinin ifasına başladığı zaman, Vilsonun istizahı [sorğusu] varid olmuşdu [gəlib çatmışdı]. Bizim müsbət cavabımız nəticəsində Vilson yenidən isticvab etmişdir [cavab istəmişdir]. Bu istizaha cavabımız dün nəşr edilmişdir. (Qəzetemizdə vardı. İdarə.) Alman milləti hökumətin sülhə necə hazırlandığını bilmək arzusundadır. Fəqət, anlayırsınız ki, bu məsələdən sərhesablıqla [ehtiyatla] bəhs edə bilərəm. Bilirəm ki, firqələrin həpsi bu məsələni vaxtın tələb etdiyi üzrə tam sərhesablıq ilə müzakirəyə çalışırlar. Bu alman millətidir ki, rəisi-cümhur Vilsona müraciət edir. Bu əmr [iş] firqə nümayəndələrinin danışmalarına böyük qiymət verir. Almaniyanın sülh təklifi müqabilinə Vilson verdiyi bir neçə cavab, hüquq əsası üzərinə bağlanmış sülh, yaxud qüvvə əsası ilə əqd edilən barışıq məsələsi ətrafında işləyən ümum məmləkətlərdə müdhiş bir mübahisəyə bais olmuşdur. Bu xüsusda Etilaf dövlətlərində çox danışıldı. Məmləkətimizdə də mübahisə bədihidir [açıqdır, aydındır]. Bir tərəfdən acıq və qisas hissinə qapılmış və məmləkətimiz hesabına hislərini yatırmaq vaxtını yaxlaşmış hesab edənlər, həmişəkindən bərk danışırlar. Digər tərəfdən, beynəlmiləl ittifaq əsasına istinad edən firqə hələ diridir. Yeni ələməti-imanın [inanış simvolunun] hərtərəfli imtahana çəkilməsi, bunu isbat edir. Bu, isbatına hacət olmayan bir həqiqətdir. Bir hökumət və ya bir neçə dövlət ittifaqının digər bir millət müqabilinə iqdamatda bulunaraq gözü olan şeyi qaba qüvvə ilə almağa çalışmasından əvvəl, feilən qəti surətdə əhdnamə bağlanmasına və hazırki beynəlmiləl vəziyyət içində sülhə nail olmağa çalışmalıdır. Vilsonun son notası vəziyyəti artıq aydınlaşdırmadı. (Buraxılmışdır.) Vilsondan gözlənən yeni cavabın əhvalı aydınlaşdıracağı mümkünatdandır. O vaxtadək biz qövlən və feilən [sözlə və işlə] bu müğləq [dolaşıq] məsələni qarşılamağa hazır olmalıyız: Ola bilər ki, düşmən hökumətlər müharibəni davam etdirmək istərlər. O halda biz bütün qüvvələrimizi toplayaraq müdafiə etməli oluruz. Burası labüd olsa, Almaniya Hökuməti millətin müdafiəsi xüsususnda millət namından danışa bilər. Necə ki, sülh iqdamatında [təşəbbüslərində] millət namından danışdı, hüquq əsası üzərinə sülh prinsipi tərəfdarları eyni zamanda borcludurlar, qüvvə əsası üzərinə qurulan sülh müqabilində bilamüqavimət [müqavimət göstərmədən] razı olmasınlar. Bu əsası mühafizə etməyən hökumət alman mücahid və fəhlələrinin nifrətinə təsadüf edər və bəlkə xalq həyəcanı dalğalarıyla yer üzündən silinər. Fəqət, ikinci məsələni də bütün nətayici [nəticələri] ilə unutmamalıdır. Alman milləti konfransa gözü bağlı gedə bilməz. Alman millətinin ixtiyarı var sual etsin ki, Vilson şərtləriylə sülh əqd edilsə, burası Almaniyanın həyati-milliyəsi və istiqbalı üçün necə təsir bağışlar? Mətbuata nəzərən alman milləti Vilson istizahına hökumət tərəfindən cavab verildikdən sonra iqdamatın nətayicinə idrakla baxır. Şimdi hər şeydə müəyyənlik və aydınlıq tələb edir. Əvət, burası bizim üçün böyük nəticəli bir qərar idi. Şimdi bizim mövqemizin qüvvəsi özümüz nəyi haqlı sanmamızla deyil, müarizlərimizlə [rəqiblərimizlə] mübahisələrimizin nəticəsi ilə mərbutdur [əlaqəlidir]. Bu əmr [iş], fəth və qalibiyyətə adət etmiş faxir [fəxr edən, öyünən] bir millətdən böyük fədakarlıqlar tələb edir.
Bu hüquq sərhədlərimizdə də riayə edilməlidir və biz heç vaxt sərhədimizi düşmən qüvvəsinə açmayacağız. Qəbul etdiyimiz maddələr daxili həyatımıza da aiddirlər. Bir çoxları mənə etiraz edirlər ki, Vilson maddələrinin qəbulu Almaniyanın düşmən mühakiməsinə tabe olmasından ibarətdir və düşmən hüquq məsələsini öz nöqteyinəzərinə müvafiq bir surətdə həll edəcəkdir. Bu böylə olsaydı, bəs nə üçün mötəlif [etilaf edən, razılığa gələn] dövlətlərin mütəəssib [təəssübkeş] millətçilər konfransı salonunda öylə qorxurlar, necə ki canilər məhkəmədən qorxarlar. Vilson proqramının ümdə maddəsi Millətlər İttifaqı əsasıdır.
İttifaqda iştirak edən millətlərin həpsi, fədakarlığa razı olmasalar, bu əsas həqiqət olaraq meydana çıxa bilməz. Hüququn ümumiliyi özgələr kimi bizdən də tələb edir ki, istiqlaliyyəti-mütləqəmizi [mütləq istiqlaliyyətimizi] bir qədər təhdid edək [məhdudlaşdıraq]. İstiqbalımız [gələcəyimiz] üçün bunun böyük əhəmiyyəti var. Bu əsas üzərinə biz bir vahid millət kimi tərəqqi edə biləriz. Cərəyani-əfkarda [düşüncə cərəyanlarında] təbəddülat [dəyişiklik] vüqu bularsa, onda biz bu yaxınlaradək millətlərin həyatında sarsılmaz bir əsas təşkil edən təəssübi-milliyyə [milli təəssübkeşlik] əsasından ayrılmamış olarız. O halda, ağalar, həyatımızda nə səhhət [sağlamlıq] əmələ gələr, nə təcəddüd [yenilənmə]. Belə olsa, hirs və narazılıq hissi baqi [daimi] qalaraq, nəsildən-nəslə bizi məhv edər. Amma biz bu dəhşətli müharibənin əhəmiyyəti ədalət hissinə qələbədən ibarət olduğunu dərk edərsək, əgər biz böylə hiss müqabilində nifrətiz baş əyərsək, bu əmrdə [halda] hazırkı yaralarımız üçün şəfa və gələcək fəaliyyətimiz üçün zəmin taparız. Alman milləti ümumi beynəlmiləl məsələni də bu millətin xislətini təşkil edən ciddiyət və idrakla həll edir.
Biz son iki nəslin ruhunda getməliyiz. Belə edərsək, bəşəriyyətin arzusunu kəndi arzumuz kimi tələqqi etdiyimiz təqdirdə, yeni tərəqqi üçün bu fəqərədən [maddədən; bənddən] yeni mənəvi qüvvə taparız. Millətlər ittihadı əhraranə [hürriyyətpərəst] böyük bir məqsəddir. 19 fevralda söyləmiş olduğum sözləri təkrar edirəm. Mövcudiyyəti təmin üçün edilmiş müdhiş və qanlı müharibə qüvveyi-bəşəriyyənin bir çox qisimlərini müayinə edilməmiş buraxdı. Biz millətlərin rifahiyyəti-hal və hüququnu məxsusi arzu halına salmalıyız. Bu saat mən öz camaatıma Millətlər İttifaqını yegane bir təsəlli mənbəyi kimi təqdim edirəmsə, eyni zamanda gizlətmək istəmirəm ki, ən qəvi [güclü] dövlətlər buna ziddirlər. Bu təfəvvüqün [üstünlüyün] nə qədər davam edəcəyini kimsə deyə bilməz. Nə olursa olsun, yaxın günlər və həftələr bizi yeni müharibəyə məcbur edər, yaxud sülh yolu açarsalar, biz onu da bunu da qəbula hazırız. Amma bir şərtlə ki, imdiki hökumətin proqramına əməl edilsin və əski üsul hərəkətdən vaz keçilməsi qərarlaşdırılsın.

ERMƏNİ-GÜRCÜ İXTİLAFI

Gürcüstan Hökuməti nəzdində erməni diplomasi nümayəndəliyi, Tiflis qəzetəsində belə bir fəqərə [yazı] nəşr etdirmişdir. Oktyabrın 21-ində Erməni Cümhuriyyətinin Mantaşev karvansarasındakı şeylərini mühafizə edən erməni əsgərləri ilə şəhər milis nəfəratı miyanında [arasında] xırda bir ixtilaf baş vermişdir. İxtilaf imdi yatırılmışdır. Bu məsələ ətrafında min türlü şayiələr dövran etməkdədir. Bunun da ümdə səbəbi hazırda Mantaşov karvansarası qarağollarının [keşikçilərinin] gürcü əsgərlərinə əvəz edilmiş olmasıdır. İxbarat [xəbərlər] bürosu: "Qarağol erməni hökuməti müvəkkili Camalyanın rizası [razılığı] ilə əvəz edilmişdir. Çünki, erməni bölükləri İrəvana göndərilməlidirlər. Halbuki, anbardakı şeylərin həpsini aparmağa bu saat imkan yoxdur." Büro bunu da əlavə edir: "Gürcüstan Hökuməti həmən anbarlarda yığılmış erməni cümhuriyyətinə məxsus olan şeylərə heç vaxt göz dikməmişdir və dikməyir də."
Srağagün qazetələrdə yazıldığı kimi ermənilərlə gürcülər arasındakı sərhəd ixtilafının axırı vuruşma şəklini aldığı xəbər alınır. Gözəl Qafqazda yaşayan millətlərin biri-biriylə yaxşı və xoş keçinmələri və can deyib can eşidəcəkləri möhtəməl ikən, yekdigərə qarşı cəngcuyanə [müharibə arzulayan] və xəsmanə [düşməncə] bir halda bulunmaları [olduqları] anlaşılır. Bu isə gözəl Qafqaziyanın mənafeyinə müvafiq deyildir. Ələlxüsus, beş ildən bəri müharibə edən böyük millətlər və hökumətlər mütarikə [atəşkəs] qapısında və sülh arzusunda bulunduqları bir zamanda Qafqaz millətlərinin yekdigərə elani-hərb edərək, müharibə etmələri şayani-təəccübdür [təəccübə layiqdir].

AZƏRBAYCANDA

Müavinəti-tibbiyyə [tibbi yardım] lüzumu
Xıllı dairəsindən Bakı qubernatoru naminə bu məzmunda bir teleqram alınmışdır. Ətraf kəndlərdə dəhşətli müsri [yoluxucu] xəstəlik əmələ gəlmişdir. Hər gün 45-50 adam tələf olur. Zat alilərinizdən rica ediriz ki, təcili surətdə müavinəti-tibbiyyə və dərman göndərmək barəsində lazımi tədabir ittixaz edəsiniz [tədbirlər görəsiniz]. Burada dərman tapmaq pək müşküldür. Əhalinin əksəri yeni bir xəstəliyə düçar olmuşlar. Cənabınızın köməyi labüddür.

Qarabağda heyəti-mürəxxəsə
Ermənistandakı Türkiyə səfiri Məhməd Əli paşa və Qafqaziya cəbhəsi komandanı Xəlil paşa həzrətləri vasitələri ilə Ermənistan ilə Türkiyə səltənəti miyanında hasil olmuş etilaf [razılaşma] mövcibincə, Ermənistan Hökuməti Nuri paşa həzrətləri hüzuruna bir heyət göndərməyi təhti-qərara almışdır. İşbu heyət Qarabağdakı müsəlmanlar ilə ermənilərin münasibatını [münasibətlərini] yaxşılaşdırmaq və sərhəd təyini məsələsini həll edəcəkdir. Heyətə hökumət tapşırmışdır ki, Nuri paşa həzrətləri ilə etilafa [razılığa] girərək, müzakirə zamanı türklər tərəfindən müharibənin dayandırılmasını istirham [xahiş] etsin.

RUSİYADA

Şimali nahiyə Müvəqqəti Hökumətinin Arxangelsk qəzetələrində Rusiyanın birləşdirilməsi haqqında bir dekla rasiyası dərc edilmişdir. Deklarasiyada göstərilidiyi üzrə baş idarə işbu məsələləri həll etməli imiş.
1. Başqa nahiyələr ilə bərabər Rusiyada vahid bir hökumət və şimali nahiyələrdə məhəlli hökumət təşkili.
2. Şimali nahiyələrin və bütün məmləkətin ərazi və istiqlalimilliyyəsinin düşmən təərrüzündən və əhalisinin mühafizəsi.
3. Rusiyadan ayrılmış nahiyələrin əhalinin ixtiyarı ilə yenidən Rusiya ilə birləşmə və Rusiyaya mülhaq [ilhaq] olmaları.
4. Həqiqi camaatın hökumət müəssisələrinin, Məclisi-Müəssisan, zemstvo, bələdiyə idarələrinin və hürriyyətin təcdidi.
5. Əhalinin ruhani, iqtisai və ictimai hüquqlarını təmin edəcək sabit və qanuni nizamın bərpası.
6. Zəhmətkeşlərin torpaq hüququnun təmini.
7. Məsai [əmək] mənafeyinin bütün Rusiya və şimali nahiyələrin iqtisadi və siyasi mənafeyinə müvafiq bir surətdə mühafizəsi.
8. Əhali arasında hökmfərma olan aclığın dəf və rəfinə [aradan qaldırılmasına] səy edilməsi.

«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 31 oktyabr (cümə axşamı günü) tarixli XXVII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

TƏLƏBƏLƏRİMİZƏ DAİR

4 sənədən ziyadə davam edən Avropa qanlı müharibəsi hamı məmləkətləri millətlərlə bərabər biz Qafqaziya müsəlmanlarını da mütəzərrir etmişdir [ziyan vurmuşdur]. Şu müharibə Qafqaziyada sənaət, iqtisad və ticarətcə təxribat yapdığı kimi, biz müsəlmanları da maarifcə çox sənələr geriyə atmışdır. Müsəlmanlar axırıncı illərdən bəri elmə, məktəbə həvəskar olub da, 10-20 il müddətində yetirdikləri oxucu və tələbələr arasında baş açıq qaldılar. Bu 4 ilin ərzində Rusiya ali məktəblərində təhsildə bulunan tələbələrimiz maddi cəhətcə zəif olduqlarından və axırıncı inqilabdan naşi dərslərini atıb, kəndi məişətlərini təmin etməyə çalışmışlar. Vətənlərində edadi məktəbləri bitirən tələbələrimiz də yenə təhsilə gedə bilmədiyindən və maddətən təmin edilmiş olmadıqlarından kəndi əməyi ilə özlərini və ailələrini idarə etmişlərdir. İmdi Qafqaziyanın mərkəzi və Azərbaycanın paytaxtı olan Bakı şəhərinin müzəffər Türkiyə Ordusu tərəfindən alınıb da, islam [müsəlmanların] əlinə keçdiyindən, Azərbaycan tələbələrinin üzünə hamı məktəblər və darülfünunlar [ali məktəblər] açılsın gərək. Azərbaycanın azad övladı elm təhsilində artıq Rusiyaya möhtac deyildir. Bu gənclər həpsi islamın ikinci Kəbəsi mənziləsində [yerində] olan İstanbulda ikmali-təhsil etməlidirlər [təhsillərini başa vurmalıdırlar]. Əlbəttə, bu barədə bizim yeni təşkil olmuş Azərbaycan Hökuməti, kəndisinin ziyalı qüvvəyə möhtac olduğunu nəzərə alıb, əli altında olan tələbələri az olmalarına baxmayaraq, təhsilə göndərməlidir. Digər tərəfdən hökumət tərəfindən səfərbərlik elan olunub, həp gənclər o cümlədən tələbələr, silah altına alınmalıdırlar. Əlbəttə, yeni hökumətin yeni ordusuna hadi [yol göstərən] olmaq üçün bizim tələbələrimiz zabitan məktəblərinə varıb da yeni əsgərlərimizi irşad etməlidirlər [doğru yola sövq etməlidirlər]. Şimdi bunu heç bir tələbə və ziyalı inkar edib, öz vəzifeyi-əsgəriyyəsinin ifasından imtina etməz. Lakin, gənc tələbələr yeni hökumətimizin istiqbalını [gələcəyini] və atidə [gələcəkdə] fəal millət xadimlərinə möhtac olduğunu düşünüb, təhsillərini itmama yetirmək [başa vurmaq] həvəsinə düşmüşlərdir. Əvət, bu əsgərlikdən imtina deyildir. Biz bunu düşünməliyiz ki, 5-10 nəfər ziyalı hökumət makinasını idarə etməyə qadir olammaz. Şiməndifər [dəmiryolu], zavod və fabriklərdə işləyən əcnəbilər Azərbaycanın türklər yedinə [əlinə] keçdiyindən mütəəssir olub, vəzifələrini ifaya səy etməyir və yaxud vətənlərinə qayıdırlar. Bunlar getdikdən sonra, şiməndifərlərdə, zavodlarda işləməyə qadir xidmətçilərimiz varmı? Budur ki, bizim tələbələrimiz öz aralarından bir taqımını əsgərlikdən saxlayıb, İstanbulda təhsil etməyə çalışırlar. Hökumət bu gün tələbələrin arzusunu səmimi qəlbdən alqışlamalıdır. Gələcəkdə tələbələrin bu iqdamı [addımı] hökumətimizə çox mənfəətlər yetirəcəkdir. Bu vaxtadək rus edadilərində və ali məktəblərində elm oxuyaraq, bütünbütünə öz vətənindən, millətindən uzaqlaşıb da, ruslaşmaqda olduğumuz halda, bundan belə Dərsəadətdə [istanbulda] təhsil alıb, öz milli ruh və salim qəlblə Azərbaycana qayıdıb, kəndi millətimizə xidmət etməliyiz. Bən yenə təkrar edirəm ki, tələbələrimiz məmləkətin bu ağır vaxtında məmaliki-əcnəbiyəyə [əcnəbi ölkələrə] təhsilə getmələri ilə heç də yeni təcrübəsiz ordumuzu başlı-başına buraxıb, əsgərlikdən qaçmırlar. Lakin, sadə nəfər və yaxud kiçik zabit olmaqdansa, bunlar Türk və Azərbaycan Ordusunun daha mürşid hadisi [daha yaxşı yol göstərəni] və daha müqtədir zabiti olmaq üçün, İstanbul hərbiyyələrində [hərbi məktəblərində] və qeyri ali məktəblərində təhsil etməyə çalışırlar. İştə Azərbaycan tələbələrinin arzusu!

Bu gün hökumət vətənin gənclərinə müavinət [yardım] etməlidir!

Əli Əkbər Buzovnalı

AÇIQ MƏKTUB

"Kaspi" qazetəsinin 84-cü nömrəsində bir baş məqalə yazılaraq, Daşnaksutyun firqəsinin siyasətindən bəhslə deyilmişdir ki, ermənilər içində böylə siyasətə razı olmayanlar varsa, səslərini çıxarmalıdırlar. Zira, onların sükutu daşnak siyasətinə razı və daşnaklarla həmməslək [eyni əqidədə] olmaları kimi tələqqi [qəbul] olunur. Daşnak olmayıb, onların siyasətini təsvib etməyən [bəyənməyən] ermənilər səslərini çıxararsalar, bu vaxtadək törənmiş olan vəhşiliklərin məsuliyyəti ermənilərdən bir qisminin üzərinə düşər və erməni milləti ilə bizim aramızda dostluq və mehriban qonşuluq münasibatı [münasibətlərinin] hüsuluna [meydana gəlməsinə] zəminə hazırlar. Məzkur məqaləyə cavab olmaq üzrə erməni mühərrirlərindən, camaat xadimlərindən Kara-Murza yenə həmən qəzetənin 87-ci nömrəsində "Kaspi" müdirinə belə bir açıq məktub yazmışdır: Möhtərəm Qara bəy, "Kaspi" qazetəsinin 84-cü nömrəsində yazılmış baş məqaləyə Daşnaksutyun firqəsinin məslək [əqidə] düşməni olmaq üzrə, cavab verməyə müsaidənizi rica edirəm. Məzkur məqalədə deyilir ki, daşnaksaqan olmayan ermənilərin tərəfindən Daşnaksutyun firqəsinin ağılsızcasına yürütülən millətçilik siyasətini sükutla keçirmələri bu siyasətə razı olduqlarına bir əlamətdir. Bu fikrin yalnışlığı elə burasındadır ki, sükut, həmişə riza əlaməti deyildir. Biz biliriz ki, tərəqqipərvər rus mətbuatı uzun müddətlərdən bəri rus bürokrat hökumətinin ən fəna işləri barəsində bir şey yazmayırdı. Fəqət, burasını onun hökumət nöqteyi-nəzərinə razı olması ilə izah etməriz. Məlumdur ki, imperator 3-cü Aleksandrın vəfatı münasibətilə "R. vedomosti" qəzetəsinin tövsif yazmaması haqqında qəzetəyə tənbeh edilmişdir. Aşikardır ki, burada sükut hökumət nöqteyi-nəzərinə razı olmamaq əlaməti idi. Bu surətlə sükut həmişə riza əlaməti deyil. Bəzi vaxt tamamilə əksidir. Mülahizə ediniz ki, sentyabr hadisatına [hadisələrinə] hamıdan ziyadə, həman Mart fəlakətinə bais olan daşnaksaqanlar etina, səs-küy edirlər, amma daşnak olmayan ermənilər, Mart hadisatının cavabı olan sentyabr fəqərəsinin [hadisəsinin] labüdlüyünü dərklə, sükut ixtiyar edirlər. Zənnimcə, bu mülahizələrlə bütün ermənilərin Daşnaksutyun firqəsi tərəfindən yürütülən kutahbinanə [dar düşüncəli], bundan dolayı da həman erməni millətinin özü haqqında cinayətkaranə siyasətinə "razı olmaları" məsələsi həll edilmiş olur.

Fəqət məntiqi xətalardan başqa, məzkur məqalənizdə izaha möhtac sair təkidat [fikirlər] dəxi mövcuddur. Məqalədə deyilir ki: "Hesablaşmaq saatı yetişdikdə, ələ düşən hər erməni özünün daşnak olmadığını və bütün təqsirlərin Daşnaksutyun firqəsində olduğunu təkid edir. Nəticədə anlaşılır ki, cinayət işlənir, fəqət kimlər tərəfindən, məlum deyil. Zira bir müqəssir ələ düşməyir. Belə çıxır ki, ermənilər bir sürü qoyundurlar, müsəlmanlar isə vəhşi canavar sürüsüdürlər."

Müqəssirləri tövqif etmək mümkün olmayırsa, burası müqəssir yoxdur demək deyildir. Daha təbii olardı ki, müqəssirlər qaçanlar arasında axtarılsın, nəinki Bakıda qalanlar miyanında [arasında]. Çünki, özünü günahkar və hər günahdan sonra hesablaşmaq saatının gələcəyini bilən bir adam heç vaxt şəhərdə qalmağa cəsarət etməz. Əlavə, yanlış müqəddimənizdən məntiqcə əsla "qoyun və qurd" məsələsi kimi yanlış nəticə hasil olmaz. Mən erməni olduğum halda, hamıya deyirəm və iləricə demişəm ki erməni millətinin rüsvalığı olaraq ermənilər dəxi müsəlmanları, hətta müsəlman arvad, uşaq və qocalarını insaniyyətə müqayir [zidd], vəhşiyanə bir surətdə qətl edə bilirlər. Lakin, mən inanıram və həmçinin bunu da hamıya deyirəm ki, belə cinayətdə müqəssir olmayan müsəlmanlar dəxi vardırlar. Siz də inanınız möhtərəm doktor ki, ermənilər, hətta daşnaklar arasında da çox adamlar var ki insana əl qaldırmağa müstəid deyildirlər [əl qaldırmağı bacarmazlar]. Binaileyh [ona görə] də mart hadisəsinin təqsiri onların öhdəsinə düşməz.

Bir də məqalə sahibi daşnaksaqan olmayan ermənilərdən tələb edir ki, siyasi macəraculuğa [macərapərəstliyə] və əxlaq pozucu bolşevizmə uyaraq mart ayında və sonralar bir çox uyezdlərin müsəlman əhalisinə bunca zülm etmiş Bakı Daşnaksutyun firqəsi canilərinə protesto etsinlər. Məgərəsə insanların böylə vəhşiliyi hələ ayrıca protesto tələb edir. Məgərsə şərir [yaramaz], ağılsız qardaşlarının günahı müqabilində cəza almış olan yerdə qalan ermənilərin bu hadisələrə nifrətdən başqa bir ayrı hissləri də ola bilərmiş?

Axır, sükut əlamətiriza [razılıq əlaməti] deyildir. Nəhayət, sükut nərdədir? Qulaq asın ki, erməni camaatı arasında milləti xainanə bir surətdə aldatmış olan firqəyə qarşı nə qədər nifrət var. Zira, bu firqə həmişə əksini təkid etdiyi halda, firqənin mənafeyini millət mənafeyindən uca tutmuşdur.

Nəhayət, müəssif [təəssüf doğuran] mart-sentyabr ayları hadisatının müqəssirlərini aramağın vaxtı yetişməsi və lüzumu xüsusunda bir neçə söz deyəyim. Ümumiyyətlə, bu hadisələr aşikar və müqəssirləri məlumdurlar. Həmçinin məlumdur ki, mart və sentyabr hadisatını mütəaqib [ardınca] idrakla icra olunan müəyyən siyasətlər yürütüldülər və birinci siyasət haqqında sentyabradək danışmaq qeyri-mümkün olduğu kimi, ikinci haqqında da şimdi danışmaq olmaz. Halbuki mühərririn vəzifəsi hər işi tamamilə tənvir etməkdir [işıqlandırmaqdır]. İmdi dərin matəmə batmış Bakı erməniləri, hələ ölülərini ağlamamış və bəzilərinin fəlakətli xətaları digərlərinin müqəddəratına bunca inikas etdiyini [əks olunduğunu] ürək yanğısı ilə dərk etdiyi bir zamanda, mart ya sentyabr müqəssirləri haqqında mübahisə[yə] başlaya bilərlərmi? Nəhayətsiz müsibət içində nə mübahisə vaxtıdır? Bundan əlavə, bizim yekdigərimizə [bir-birimizə] qardaş kimi əl uzatmamız üçün qatil və qarətgərlərə [soyğunçulara] qarşı nifrət və etirazmı lazımdır? Halbuki, əqrəbasının pişəzvaxt [vaxtsız] və fəcianə bir surətdə ölməsinə ağlayanlar ağzında onlar təlin edilirlər [lənətlənirlər] və iş həm söz quldurlarının və allahsızların xahişlərinə rəğmən, ittihad və qardaşlıq hasil olarsa, məzlumlar daha yaxşı ibrət dərsi almazlarmı? İnsanın xeyirxahlığına iman qüvvətli olarsa, insaniyyətini qeyb etmiş şəxslərə bəyani-nifrət edilmədən [nifrətini ifadə etmədən] də əsrlərdən bəri qonşu olan iki millət arasında məhəbbət, üxüvvət [qardaşlıq] və müvafiqət [uzlaşma] əsasları üzərinə yeni həyat əsası qurmaq olar. Mən böylə xeyir əsaslara inanır və mənhus zamanəmiz dolu olan şərlərin belə məndə bu imanı öldürmədiyinə iftixar edirəm. Təhti-idarənizdə [rəhbərliyiniz altında] nəşr olunan qəzetənin bir çox məqaləsinə mən, daşnaksaqan olmayanın cavabı budur. Sizin üçün kafidirmi yoxmu, bilmirəm. Fəqət, hələlik bundan artıq deyə bilmə-rəm.

P. Kara-Murza

BAKI XƏBƏRLƏRİ

• Dün Daxiliyə naziri Polis müfəttişi-ümumisi müşayiəti ilə məhəlli həbsxanalara baxmışdır.

• Bu günlərdə Bakı qubernatoru naminə Ticarət və Sənaət Nəzarətindən bir kağız gəlmiş ki, Azərbaycan Cümhuriyyəti dairəsində 12 rubləyə cövhər, 8 rubləyə neft (aksiz vergisi də buraya daxildir) buraxılacaqdır. Bundan dolayı, qubernator cənabları əhalini xəbərdar etməlidir ki, Nəzarətə müraciət etsinlər.

• Şəhərin Maliyyə komisyonu qət etmişdir ki, gələn iclasda şəhər qulluqçuları məvacibərinin artması barəsində məruzə pişnihad [təqdim] etsin.

• Əsgərliyə çağırılan bələdiyə qulluqçularına bir ayın məvacibini verməyi Bələdiyə İdarəsi qət etmişdir.

• Şəhərin Maliyyə komisyonu ev sahiblərinin qiymət vergisinin 20-dən 10 faizinə kimi azalması barəsində verdikləri istidayı [ərizəni] rədd etmişdir.

• Şəhər əmini, uprava üzvü, su kəməri baş mühəndisi və dəftərxana müdiri imzaları ilə qubernatora bir ərzi-hal verilmişdir. İşbu ərzihalda deyilir ki, su kəməri təmiri üçün göndərilən qulluqçular qoşun hissələri tərəfindən tutulub, ya həbsə aparılır və yaxud başqa işlərə sövq etdirilirlər. Bunları həbsə alan zəvat [şəxslər], Şəhər İdarəsi şəhadətnamələrini nəzəri-etibara belə almayırlar. Bu isə su işlərinin fəna olmasına səbəbiyyət verəcəkdir. Şəhər İdarəsi qubernatordan rica edir ki, rəyasəti-əsgəriyyə [hərbi idarə] nəzdində böylə qulluqçulara şəhadətnamə verilməsi barəsində lazımi binagüzarlıqda [təşəbbüsdə] bulunsun. Bunların gecə və yaxud gündüz şəhərmədən dairəsinə buraxılmaları barəsində lazımi tədabir ittixaz edilsin.

• Quba ətrafında Şəhər İdarəsi əhalidən ötrü taxıl hazırlamışdır. Şəhər İdarəsi Qafqaziya İslam Ordusu Baş komandanı həzrətlərinə müraciət edərək, Xaçmaz mövqifindəki "Qafqaz-Merkuri" cəmiyyətinə məxsus anbarların Şəhər İdarəsinə verilməsi və həmən mövqifdəki ərzaq təşkilatına məxsus avtomobilin şəhər acentələrinə verilməsi barəsində lazımi bina-güzarlıqda bulunmağı rica və istirham etmişdir.

• Dünəndən etibarən Bakı qubernatoru dəftərxanası dərya kənarında vaqe Dadaşovun 10 nömrəli mülkünə köçmüşdür. Dəftərxana 2-ci və 3-cü mərtəbələrdə yerləşdiriləcəkdir.

Müştərək müqavilənamə

Üçüncü gündür ki Şəhərin Duması Maliyyə şöbəsinin iclası davam edir. İclasda yeni Dumanın şəhər qulluqçuları ilə bolşevik Dumasının bağladığı müştərək müqavilənamə [kollektiv müqavilə] müzakirə edilirdi. Məsələ uzun-uzadı mübahisəyə səbəb olmuşdur. Natiqlərin əksəri işbu müqavilənin qarışıq vaxtda bağlandığından, bir çox hüquqi əsaslara məbni [görə] yeni Duma üçün icbari olmamasını söyləmişlər. Maliyyə şöbəsinin qətnaməsi də bu ruhda olmuşdur.

Xüsusi banklarda

Hal-hazırda xüsusi banklar sabiq və yeni fəaliyyətlərinə başlamışlar. Müamilatın [əməliyyatların] kiçik miqyasda aparılmasının səbəbi, Azərbaycan Hökumətinin xaricə ilə müamilatda olmamaq barəsində verdiyi fərmandan iləri gəlmişdir.

Padşahlıq bankasının əlaqəsi qeyri-müəyyən olduğundan, işbu banklar sərbəst müamilata başla[ma]mışlar. Bankların bütün portfelləri təcil edilmişdir [təxirə salınmışdır]. Təcil edilmiş veksellərə pul vermək məsələsi hökumət tərəfindən müəyyən edilməmişdir. İşbu məsələdən və padşahlıq bankada istiqraz olmadığından, xüsusi banklar fəaliyyətə başlaya bilməyirlər.

Ərzaq komitəsində

Üçüncü gündür ki qlasnı Leontyeviç sədarəti altında Ərzaq komitəsinin xüsusi müşavirəsi olmaqdadır. Smirnov qəzalar ilə ediləcək mal mübadiləsi barəsində şifahi məruzə söyləmişdir. Məruzədən məlum olur ki, Şəhər İdarəsinin Türkiyə Komandanlığı ilə bağladığı etilaf mövcibincə [razılaşmaya uyğun olaraq], bütün Quba qəzasından Bakı üçün ərzaq gətirmək müyəssərdir. Ərzaq şöbəsinin məlumatına görə işbu qəzadan beş yüzdən səkkiz yüz min putadək taxıl gətirmək olacaqdır. Məhəlli [yerli] əhali taxıl buraxmağa razıdır. Fəqət, lazımlı əşya tərəfindən təmin edilmələrini şərt qoymuşlar. Ərzaq şöbəsi müvəkkili kənçilərlə etilafa girişmişdir. Bu etilafa görə, kəndçi verəcəyi taxıl əvəzində bütün qiymətinin rübünü [dörddə birini] mal, dörddə üçünü pul [ilə] alacaqdır. Bu şərait üzrə bu günlərdə buğda putu 40-48 rubləyə, arpa 20-25 rubləyə kimi veriləcəkdir. Müvəkkil bir neçə böyük əraziyə malik zəvat [şəxslər] ilə də etilaf bağlamışdır.

Smirnovun əqidəsincə Bakı qənd, çay, mıx, dəmir, cövhər, benzin buraxa biləcəkdir. Smirnov bu məsələnin bir ən əvvəl həllini rica edir. Qiymətlər qalxarsa, taxılı Dağıstana aparacaqlar.

• Əhali və Türkiyə qoşunlarına papiros, tənbəki verən Mirzəbekyanın fabrikası Ticarət və Sənaət Nəzarətin[in] indində [nəzdində] 100 nəfər fabrika fəhləsinin şəhərdə azadə gəzməyi barəsində əmr verilməsi üçün təşəbbüsatda bulunmuşdur. Fabrikanın istehsalını artırmaq qəsdi ilə edilən bu təşəbbüs, Nəzarət [Nazirlik] tərəfindən qövldən feilə [sözdən işə] gətirilmək üçün qubernatora göndərilmişdir.

• Xalq təsərrüfatı xidmətçiləri Şura heyəti-rüəsasına müraciət edərək Azərbaycan Hökumətinin təşrini-əvvəlin [oktyabrın] 18-ində verdiyi fərmanı onlara da aid olması üçün təşəbbüsatda bulunmuşlar. Bu fərman mövci-bincə [fərmana görə] bütün padşahlıq qulluqçuların məvacibi artırılır. Bura qulluqçuları məvacibləri artmaqdan ötrü ayda 16 min manat pul lazımdır.

• Bir həftədir ki Kərim Məşhədi Əbuzər oğlu nam 27 yaşlarında bir Şamaxı əhli itmişdir. Əşkalati-məxsusəsi [xüsusi nişanları]: ortaboylu, qara-bəniz, qara paltarlı. Bu barədə məlumatı olan cənablardan "Azərbaycan" qəzetəsi idarəsinə xəbər verməyi rica ediriz.

LƏNKƏRANDA

Lənkəranda yazırlar ki, bu günlərdə buraya bir qədər ingilis gəlmişdir. Bunlar şəhərin ətraf və əknafını [kənarlarını] gəzərək, plan götürürlər və nəinki nabələd olduqları yerlərin şəraiti-coğrafiyyəsini [coğrafi şəraitini], hətta məhəlli [yerli] əhalinin əxlaq və adabını [adət-ənənələrini] belə müfəssələn öyrənirlər. Donanma vasitəsilə Petrovsk cəbhəsindən məlumat alaraq, bunlar əhali arasında hər türlü yalan xəbərlər yayırlar ki, guya türklər məğlub olaraq Qafqaziyadan çıxırlar və bütün Bakı sərvətini özləri ilə apararaq Azərbaycanı köməksiz və məiyyətsiz [yoldaşsız] buraxırlar. Məhəlli türk və iranlıların kəndi müqəddərlərini Türkiyə ilə bağlamağını zərərli göstərmək qəsdi ilə ingilislər məhəlli türklər arasına nifrət saçmağa çalışaraq, İngiltərə ilə dostluq uğrunda təbliğat icra edirlər. Türkiyə əleyhinə ədavətkaranə təbliğat və intriqalar bir tərəfdən İngiltərənin qızılı və rüşvət, digər tərəfdən siyasi tərəddüd ruhu doğuraraq, şəkk və şübhə hüsulu ilə [əmələ gətirməklə] məhəlli türklərin istiqlaliyyəti-milliyyəyə və Azərbaycanın ehya və təcdidinə [dirçəlməsinə və yenilənməsinə] olan etiqadını qeyb etdirirlər. Müsəlmanlarla xoş rəftar etmək, hammala [hambala], fəhləyə muzdu çox vermək, bazardan əşyanı danışıqsız almaq və sairə ilə öz vətən və millətini cib mənfəətinə satan avam camaatı öz tərəflərinə çəkirlər.

Burada təkrar bir şad xəbər çıxmışdır ki, Petrovsk süqut etsə Muğan qoşunu Lənkəranı davasız təslim edirlər. Çünki, şərir [yaramaz] politikanların [siyasətçilərin] qanlı əlləri ilə vurulmuş yaralara məlhəm qoyub, adi zəhmət və kəsbinə qayıtmaq istəyən zəhmətkeş rus əkinçiləri belə tələb edirlər. Fəqət, rus və türk zəhmətkeşlərinin bu tələbi ciddi maneələrə uğrayır. İngilislər əsrlərdən bəri mehriban qonşu kimi yaşamış olan bu iki millətin yaxınlaşmasına hər vəsilə ilə mane olurlar. Astaradan Kürün mənsəbinədək dəniz sahilini əlinə alıb, balıq vətəgələrini işlətmək və Krasnavodsk - Hacı-Tərxan təriqi ilə Rusiya ilə dəniz ticarət əlaqəsini təzələmək qəsdi ilə ingilislər Avetisov ilə İlyaşeviç arasında çıxmış olan ixtilafı yatırır və İlyaşeviçə tövsiyə edirlər ki, Salyana təzədən qoşun göndərərək, islam əsgərləri tərəfindən xilas edilmiş olan yerləri geri alsınlar. Amma bu təşəbbüs baş tutmayacaqdır. Çünki Muğan qoşunu ermənilərə qarşı ədavət bəsləyirlər və ingilisləri Rusiyanın böyük düşməni hesab edərək onların qızılına aldanmaq istəməyirlər. İngilislərin vürudundan [gəlişindən] bəri erməni qoşunları müsəlmanları çox şiddətlə sıxışdırırlar.

Yalan xəbər və əsassız şübhə üzərinə ermənilər müsəlmanların evlərini axtarır, adamları həbs edib həbsxanaya apararkən yolda guya qaçmaq istədiklərini bəhanə edərək güllələyirlər. Yalan bir xəbər üzərinə arvadlı-uşaqlı bütün ailəni həbs edirlər. Adamı yolda tutub bisorğu və sual [sorğusuz-sualsız] öldürürlər.

Avetisov saldatlarının müsəlmanlar haqqında etdikləri vəhşilik və zülümlər sayəsində, şəhər guya ölmüşdür. Çünki camaat küçəyə çıxmaqdan qorxub, evlərdə gizlənirlər. Bu günlərdə 28 bakılını həbs ediblər ki, Bakı alınanda siz dəxi Bakı hadisatında iştirak etmisiniz. Halbuki bu adamlar Bakı hadisatından çox iləridən Bakıda olurlar və heç yerə getməmişlərdir. Məhbuslardan otuz min manat almışlar ki, buraxsınlar. Amma pulu aldıqdan sonra buraxmamışlar.

Erməni zülüm və boyunduruğu altında əzilən biçarə məhəlli türklər səbirsizliklə gözləyirlər:

Nə vaxt himmət və həmiyyətli qardaşlarımız gəlib bizi vəhşi Avetisov saldatlarının qanlı əllərindən xilas edəcəklər.

XARİCİ XƏBƏRLƏR

Londrada Beynəlfirəq [Partiyalararası] Sosialistlər Konqresi

İşbu günlərdə Londrada Beynəlfirəq Sosialistlər Konqresi qapanmışdır. Qurultay Amerikanın Avstriya sülh təklifinə verdiyi cavabı təsvib edərək [bəyənərək], başqa müttəfiqlərin də sülh haqqında nəzəriyyatlarını [nəzəriyyələrini] bəyan etməyi təklif edir. Müttəfiqlərin Rusiyadakı siyasətinə gəldikdə, Fransa sosialistləri əqidəsi əleyhinə olaraq qurultay işbu siyasəti sabiq tərzi-idarənin qayıtması şərtilə təsvib etmişdir. Sosialistlər müharibə zamanı beynəlmiləl konqre dəvətini rədd etmişlər.

Türk duyğuları

Yeni əsgərlərə

5

BÖYÜK YOL, BÖYÜK İMAN

Ey türk elinin böyük əsgəri!
Üzündə şimdi gördüyüm tərlər
Pək böyük və pək ağır yükləri
Sırtına bu gün aldığın söylər...

Yerdən qalxaraq təmiz alnına
Yavaş və sakin o qonan tozlar
Şəfqətlə səni öpüyor... Bunlar
Busələridir vatanın sana...

Ardında sana həp qurtulanlar
Dua ediyor... Baxma arxana.
Önündə fəqət ağlayanlar var,
Əlində silah, get sən onlara...

Xain, qanlı və qəddar əllərlə
Parçalanmaqda analar, qızlar...
Nurlu bacılar, həpsi də murdar
Oldu, pək yazıq, pis əməllərlə...

Durma, yürü, qoş, bunları qurtar,
Təmiz qalanlar bərbad olmasın...
Düşmən altında inləyən qızlar
Qurtulsun artıq, fəryad qalmasın...

Mavi səmanın göz yaşlarıyla
İslanmış çəmən üstündə bir qan
Görər hər sabah erkəndən qalxan.
Yaşıl, qızarmış türk qanlarıyla...

Kəskin, ləkəli bir daş görərsən,
Bil, o xain bir əldən keçmişdir...
Düşmən əliylə bir türk qızından
Qanınca qızıl qanlar içmişdir...

Topraqlarında yıxıq evlərin
Bulacaqsan bir qaç çürük kəmik.
Bir qaç cəsəd və ya dəlik-deşik...
Yaxud kəlləsin bir mücahidin...

Qarşısında bir yanmış yuvanın
Əlbəttə sən bir gün qalacaqsan.
Orda yaxılmış bir gənc qadının
Küllərini bil ki, bulacaqsan.

Bunların ruhu şimdi səmada
Görünməz bir quş kimi uçmaqda.
Nurlar içində məhzun baxmaqda...
Görünər sana bəlkə röyada.

Keçdiyin yerdə al qanlar axdı,
Məs'ud yuvalar tarumar oldu...
Basdığın topraq bir gülüstandı,
Gülləri soldu, həp məzar oldu...

Sırtında iki yol: millət, vatan.
Qəlbində iki böyük iman var:
İntiqam, bəqa. Olmazsa bunlar
Yanar, qovrular, məhv olar Turan.

Sırtındakı yükünlə tərlərsə üzün,
Vatan öpər səni incə tozlarıyla...
Qəlbindəki imanla titrərsə özün,
Turan qucar səni gözəl qızlarıyla...

Görməliyəm bən hər an
O titrəyən könlündə,
Alnındakı tərində
Böyük yol, böyük iman...

Arif İrfan Qaraosman
16/10/334, Bakı

GÜRCÜSTANDA

Səfarətlər [Səfirliklər]

Bu günlərdə Tiflisə İngiltərə, Fransa, Amerika səfarətləri gələcəyi gözlənir. Bunlar bir neçə ay bundan əqdəm [əvvəl] şimala tərəf getmişlər idi. İngiltərə səfarəti başçısı Mayor Pak Vladiqafqazda bolşeviklər tərəfindən öldürülmüşdülər. Heyətin başqa üzvləri həbsə alınmışdılar. Bunlar İran konsulunun təşəbbüsatı sayəsində azad edilmişlər. Vətənlərinə getmək müyəssər olmadığından naşi [olmadığına görə], bunlar Tiflisdə qalacaqlar. Gürcüstan Hökuməti bunların can və mallarının təminini öz öhdəsinə götürmüşdür.

Qara dəniz yolu

Gürcüstan Cümhuriyyəti Hökuməti Qara dəniz boyuyla çəkilən dəmiryolu itmama yetirməyi [tamamlamağı] qət etmişdir. Qalan mühümmatın mühafizəsi Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] həvalə edilir [tapşırılır]. Bundan ötrü də ... min manat pul təxsis edilmişdir [ayrılmışdır]. Əvvəlinci dəfə Novo-Senaki – Zuqdidi birləşdiriləcəkdir.

Camalyanın etirazı

Ermənistan Hökuməti müvəkkili Camalyan Gürcüstan Hökuməti tərəfindən Ermənistana pul buraxılmaması müqabilinə protesto vermişdir. Gürcüstan Hökuməti təcili surətdə işbu etiraza cavab verməsini vəd etmişdir.

Qənd təklif edilir

Bələdiyyə İdarəsi Qavriil Kostin ilə etilafa girməyi [razılığa gəlməyi] qət etmişdir. Bu zat putu 295 manatdan 10 vaqon qənd və şəkər, putu 320 manatdan şirni (manpası) təklif etmişdir. Bu qiymət Tiflis mövqifində [stansiyasında] təyin edilir.

Bələdiyyə İdarəsi işbu qiymətləri təklif edir: qəndə 260 rublə, şəkər 250 rublə, manpası 280 rublə.

Diş müalicəxanası
S.M. İtkinn süni diş laboratoriyası

Dişlərin ağrısız çəkilməsi. Təzə üsulla farfor və qızıl dişlər qondarılması. Dişlərini qayıtdırmaq və diş qoydurmaq xahişində olanlar səhər saat 9-dan birə və 4-dən 6-ya qədər qəbul olunurlar.

Ünvan: Bolşoy Morskoy küçədə 37 nömrəli ev, telefon 06-25.

208 25-10

Arvad diş həkimi Z. A. Şexter xanım

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qarma və hər növ qayırma dişlər. Dişin yaxşı qayrılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur 9-dan 2-yə və axşam 4-dən 7-yə kimi. Vorontsovski küçə, 14 nömrəli evdə, paradnı qapıdan.

215 25-5

Müsəlman
diş təbibəsi Ayna xanım

Malakan bağının qarşısında Zeylidsonun kabinəsində hər gün xəstə qəbul və hər növ diş emal və tədavi [müalicə] edir. Zabitan və əfradın [zabitlərin və əsgərlərin] dişləri əhvən şəraitlə [münasib şərtlərlə] tədavi və emal edilir.

213 12-8

Arvad diş həkimi Moiseyeva-Levin

Olqinski caddədə ev nömrə 5, 3-üncü mərtəbə, sağda. Telefon nömrə 06-23.

Dişlərə müalicə edir, çıxarır. Kauçuk və qızıl üzərində sabiq Berlin şəhər müalicəxanasının müdiri nəzarəti altında süni dişlər qayırılır.

Qəbul edir: səhər saat 9-dan 1-ə kimi; axşam saat 5-dən 8-ə kimi.

216 25-5

Müdirlər:
Ceyhun bəy Hacıbəyli
Şəfi bəy Rüstəmbəyli

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Teleqraf xəbərləri:
Osmanlı Milli Ajansı xəbərləri

"29.10.34": burada il, rumi təqvimlə verilmişdir; miladi təqvimlə 29 oktyabr 1918-ci ilə uyğundur.

Bakı, 23 məhərrəm:
Vəziyyətimiz

"Ümmid ilədir cahanda hər hal": Türk şairi Müəllim Nacinin "Quzu" şeirindən götürülmüşdür.

"C. D.": bu imza Ceyhun bəy Hacıbəyliyə məxsusdur.

Kançlerin nitqi

"Mövcudiyyəti təmin üçün edilmiş müdhiş və qanlı müharibə qüvveyi-bəşəriyyənin bir çox qisimlərini müayinə edilməmiş buraxdı.": qəzetdə "müayinə" yerinə "ayinə" getmişdir.

Rusiyada

"Şimali nahiyə Müvəqqəti Hökuməti": burada söhbət 1918-ci ilin avqustundan 1920-ci ilin martına qədər mövcud olmuş muxtar dövlət qurumu Şimal vilayəti (yaxud Şimali Rusiya) hökumətindən gedir.

Açıq məktub

"Möhtərəm Qara bəy...": Qara bəy Qarabəyli nəzərdə tutulur.

"R. vedomosti": "Russkiye vedomosti" qəzeti nəzərdə tutulur.

Xarici xəbərlər

"Müttəfiqlər": Antanta bloku nəzərdə tutulur.

Gürcüstanda: Qənd təklif edilir

"şəkər": şəkər tozu nəzərdə tutulur.